# Qarabağ Universitetində vakansiya – kafedra müdiri

**İşəgötürən:** "Qarabağ Universiteti" publik hüquqi şəxs

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri nəzərə alınaraq regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə Qarabağ Universiteti yaradılıb.

Universitet Xankəndi şəhərində fəaliyyət göstərəcək.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 fevral 2024-cü il tarixli 73 nömrəli Qərarı ilə təsdiq olunmuş "Qarabağ Universitetinin Nizamnaməsi"nə əsasən, ali təhsilin bütün səviyyələri üzrə genişprofilli mütəxəssis və yüksəkixtisaslı elmi kadrların hazırlanması, eləcə də orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi, elmin müxtəlif sahələri ilə bağlı tədqiqatların aparılması universitetin fəaliyyət istiqamətlərinə daxil edilib.

Qarabağ Universiteti fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili, eləcə də təhsilalanların yüksəksəviyyəli bilik və bacarıqlarla təmin olunması məqsədilə yüksəkixtisaslı peşəkar kadrlar üçün vakansiya elan edir.

**Vəzifə:** kafedra müdiri

**İşin təsviri:**
- müvafiq ixtisaslar üzrə təhsil proqramlarının hazırlanması;
- müvafiq ixtisaslar üzrə təsdiq edilmiş təhsil proqramlarına uyğun tədris planları və digər sənədlərin hazırlanması;
- kafedranın profilinə əsasən, professor-müəllim heyətinə olan tələblərin müəyyən edilməsi və müvafiq şəxslərin işəgötürülmə prosesinin təşkili;
- Elmi Şuranın cari məsələlərinin müzakirələri və şuradakı müvafiq vəzifələr üçün keçirilən seçkilərdə (professor, dosent, baş müəllim, müəllim, assistent) iştirak;
- kafedrada təlim-tədris və elmi-tədqiqat işlərinin təşkili;
- təhsil proqramlarının icrasına rəhbərlik edilməsi;
- kafedra üzrə metodiki işin aparılması, elmi konfrans və seminarların təşkili;
- tələbə və professor-müəllim heyətinin mobilliyinin təmin olunması;
- tələbələrin ixtisasları üzrə təcrübə keçmələrinin təşkili;
- təhsilverənlərin peşəkarlıq səviyyəsinin artırılması ilə bağlı tədbirlərin həyata keçirilməsi.

**Tələblər:**
- elmi dərəcə və (və ya) elmi ad;
- ali təhsil müəssisələrində pedaqoji və ya rəhbər vəzifələrdə minimum 3 il təcrübə;
- minimum B2 səviyyəsində ingilis dili bilikləri;

- liderlik və idarəetmə bacarığı;
- innovativ, interaktiv metod və texnologiyalardan istifadə bacarığı;
- tələbəyönümlü və səriştəəsaslı tədris yanaşmalarından istifadə bacarığı;
- yüksək kommunikasiya bacarığı.

**Tələb olunan sənədlər:**

1. CV (dərc olunmuş elmi məqalələrin siyahısı və 2 nəfər tövsiyə edən şəxs yazılmaqla);
2. müşayiətedici məktub (motivasiya – maksimum 500 söz);
3. ali təhsili təsdiq edən sənədlərin surəti.

***Qeyd 1:*** *universitetdə daimi əsaslarla işləyən əməkdaşlar Xankəndi şəhərində tədris ilinin əvvəlindən başlayaraq işlədikləri müddətdə mənzillə təmin olunacaqlar.*

***Qeyd 2:*** *məktubun mövzu hissəsində müraciət olunan vakansiyanın adının qeyd olunması vacibdir. Bildiririk ki, yalnız müvafiq vakansiyanın tələblərinə uyğun namizədlərlə əlaqə saxlanılacaq.*

**Rəqabətədavamlı əməkhaqqı təklif olunur.**

**Müraciət üçün son tarix: 22 iyul 2024-cü il**

**Elektron poçt ünvanı: karabakh@edu.gov.az**